*Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.*

**Heydər Əliyev.**



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 11-12 (9195-9196) | 8 iyul 2015-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 40 qəpik

## Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**2015-ci ildə Azərbaycan milli mətbuatının yaranmasının 140 ili tamam olur.**

XIX əsrin ortalarında ölkəmizdə gedən siyasi, iqtisadi və mədəni proseslər maarifçilik hərəkatının inkişafına, ictimai fikrin yeni ifadə vasitəsi olan mətbuatın meydana gəlməsinə şərait yaratmışdır. 1875-ci il iyulun 22-də görkəmli ziyalı, publisist, təbiətşünas alim Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi kimi öz adını tarixə yazmışdır. Qəzet dövrün qabaqcıl ideyalarını təbliğ etmiş, insanları dini mövhumata və cəhalətə qarşı mübarizəyə çağırmış, ictimai-siyasi və bədii düşüncənin inkişafına güclü təsir göstərmişdir. "Əkinçi"nin bəyan etdiyi prinsipləri rəhbər tutan və onun ənənələrini davam etdirən Azərbaycan mətbuatı sonrakı illərdə dövrün mütərəqqi fikirlərini əks etdirmiş, cəmiyyəti düşündürən məsələləri ictimai müzakirəyə çıxarmış, milli mənəvi dəyərlərin təbliğində, insanların maariflənməsi və milli şüurun formalaşmasında, xalqımızın müstəqillik arzularının gerçəkləşməsində mühüm rol oynamışdır.

Ötən yüzilliyin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, milli mətbuatın inkişafında da əsaslı dönüş yaranmışdır. 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyev demokratik inkişafı, vətəndaş cəmiyyəti quruculuğunu dövlət siyasətinin başlıca istiqaməti kimi müəyyən edərək, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələri, o cümlədən senzuranı aradan qaldırmış, kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşdırılması, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, mətbuatın kəmiyyət və keyfiyyət göstəricilərinin yüksəlməsinə şərait yaratmışdır. Azərbaycan milli jurnalistikası həmin dövrdən başlayaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda Azərbaycanda 200-dən artıq qəzet, 100-ə yaxın jurnal, 50-dən çox televiziya və radio kanalı, onlarla mətbuat yayımı şirkəti və jurnalist təşkilatı fəaliyyət göstərir. İnternetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olmuş, ölkə əhalisi arasında internet yayımı 75 faizə çatmış, sosial şəbəkə istifadəçilərinin sayı 2 milyona yaxınlaşmışdır. 2008-ci ildə təsdiq olunmuş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində ardıcıl tədbirlər davam etdirilir.

Bu gün müstəqillik yolu ilə inamla irəliləyən və hərtərəfli inkişaf edən Azərbaycan Respublikası regionun siyasi, iqtisadi və humanitar mərkəzi statusunu qazanaraq beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuşdur. Mövcud inkişaf dinamikası Azərbaycanın milli informasiya resurslarından da yan keçməmiş, onların ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Qlobal informasiya məkanının gündən-günə genişləndiyi, beynəlxalq təbliğat fəaliyyətinin ayrı-ayrı ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi müasir dövrdə kütləvi informasiya vasitələrimiz daha peşəkar, obyektiv və prinsipial olmalı, yüksək milli şüur və vətənpərvərlik nümayiş etdirərək Azərbaycanın dövlətçilik maraqlarını hər şeydən uca tutmalıdırlar. Mətbuatımız ölkəmizdə müasir cəmiyyət quruculuğu, milli həmrəyliyin və tolerantlığın möhkəmləndirilməsi, siyasi mədəniyyətin inkişaf etdirilməsi, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanması və təbliğində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Azərbaycan milli mətbuatının ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı yerini, vətəndaş cəmiyyətinin inkişafı, milli mənəvi dəyərlərin təbliği, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsindəki rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan milli mətbuatının 140 illik yubileyi Azərbaycan Respublikasında geniş qeyd olunsun.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına tapşırılsın ki:

**2.1.** Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birlikdə Bakı şəhərində və respublikanın bölgələrində yubiley tədbirlərinin keçirilməsini təmin etsin;

**2.2.** jurnalist təşkilatlarının və redaksiyaların təklifləri əsasında Azərbaycan milli mətbuatının inkişafında xidmətləri olan jurnalistlərin mükafatlandırılması haqqında təklifləri bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 2 iyun 2015-ci il.*

# Azərbaycan Avropanın tarixində yeni səhifə açdı

## Prezident İlham Əliyev: Biz gərgin çalışdıq, insanlarımızın, qonaqlarımızın və bütün Avropanın yaddaşında qalacaq səviyyədə Oyunları təşkil etdik

**Müstəqil Azərbaycanda bütün dünya və Avropa üçün böyük önəm daşıyan tarixi günlər yaşanır. Cari il iyunun 12-dən etibarən dünyanın idman nəbzi tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına uğurla ev sahibliyi edən ölkəmizdə döyünür. Bakıda yeni inşa olunan möhtəşəm Olimpiya Stadionunda baş tutan birinci Avropa Oyunlarının son dərəcə heyrətamiz açılış mərasimi "qoca qitə"nin idman tarixində yeni bir səhifə açıb. Hazırda yarışlar böyük müvəffəqiyyətlə davam edir. Bundan sonra illər, qərinələr ötəcək və şübhəsiz ki, yeni Avropa Oyunları da keçiriləcək. Ancaq həmişə minnətdarlıq hissi ilə xatırlanacaq ki, Avropada xalqlar, ölkələr arasında dostluq, həmrəylik ideyalarının təbliğinə xidmət edən bu xoş ənənənin başlanğıcı məhz Azərbaycanda qoyulub.**

Ölkənin hər bir vətəndaşı Azərbaycanın Oyunlara uğurla ev sahibliyi etməsi ilə qürur duyur

Azərbaycanın uğurla ev sahibliyi etdiyi birinci Avropa Oyunlarının miqyası kifayət qədər böyükdür. Yarışlara Azərbaycan da daxil olmaqla 50 ölkədən 20 idman növü üzrə 6 mindən çox atlet qatılıb.

Eyni zamanda, ölkəmizin ev sahibliyi etdiyi birinci Avropa Oyunlarına beynəlxalq miqyasda da böyük maraq müşahidə edilir. Məlumdur ki, ilk Avropa Oyunlarının təşkil edilməsi ilə beynəlxalq komanda məşğul olub. "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsi 7 rəsmi tərəfdaşla çalışıb. Oyunlar 100-dən artıq ölkədə, o cümlədən, Avropada, Asiyada, Afrikada, Şimali və Cənubi Amerikada, eləcə də, Avstraliyada yayımlanır. Şübhə yoxdur ki, ilk Avropa Oyunlarının möhtəşəm açılış mərasiminin xoş təəssüratları uzun müddət yaddaşlarda qalacaq. İyunun 14-də "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın adından birinci Avropa Oyunları ilə bağlı Olimpiya Ailəsinin üzvləri üçün təşkil edilən qəbulda vurğulandığı kimi, "Bakı-2015" birinci Avropa Oyunları ilə bağlı ölkəmizdə görülən işlər beynəlxalq idman qurumları, tanınmış idman ekspertləri və nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Birinci Avropa Oyunlarında beynəlxalq idman ictimaiyyətinin tanınmış simalarının iştirakı isə bu Oyunlara dünyada olan marağı bir daha aydın göstərir. Qitənin mötəbər idman tədbirini keçirməklə Azərbaycan həm də növbəti Avropa Oyunlarının standartlarını müəyyən etmək kimi şərəfli bir missiyanı yerinə yetirir.




Bütün bunlar isə müstəqil Azərbaycanın vətəndaşlarında haqlı qürur hissi doğurur. Yuxarıda haqqında bəhs etdiyimiz tədbirdəki çıxışında Prezident İlham Əliyev bu məqamı xüsusilə nəzərə çatdırıb: "Təsəvvür edə bilərsiniz ki, açılışdan sonra mənə olunan çoxsaylı müraciətlərin hər birində insanlarımız birmənalı olaraq ölkəsi ilə fəxr etdiklərini bildirirlər".

Ümumiyyətlə, birinci Avropa Oyunları ilə bağlı Azərbaycan cəmiyyətində yaşanan yüksək coşqunu xüsusi vurğulamaq lazımdır. Prezident İlham Əliyevin Azərbaycanı birinci Avropa Oyunlarında təmsil edəcək idmançılarla Atletlər Kəndində keçirdiyi görüşdə vurğuladığı kimi: "Avropa Oyunları Azərbaycanda artıq ümumxalq məsələsinə çevrilib".

Oyunlarla bağlı ölkəmizdə könüllülük hərəkatı daha geniş vüsət alıb. Burada gənclərin fəallığını xüsusi vurğulamaq gərəkdir. Belə ki, 20 mindən artıq könüllü Azərbaycan gənci bütün mərhələlərdə Oyunlara öz dəstəyini ifadə edib.

Birinci Avropa Oyunları həm də tarixi ədalətin bərpasıdır

Məlumdur ki, əksər dünya ölkələrinin qatıldıqları Yay və Qış Olimpiya Oyunları ilə yanaşı, bir sıra qitə miqyaslı yarışların da keçirilməsi artıq ənənə halını alıb. Məsələn, Asiya, Amerika, İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bütövlükdə dünya idmanının inkişafına öz töhfələrini verir. Avropa qitəsi üçün isə, necə deyərlər, tarixi ədalətsizliyə yol verilib. Olimpiya Oyunları Avropadan - Yunanıstandan intişar tapsa da, indiyədək qitə miqyaslı Oyunlar keçirilməmişdi. Nəhayət, Avropanın idman ictimaiyyəti bu istiqamətdə önəmli addım atıb. Xatırladaq ki, birinci Avropa Oyunlarının 2015-ci ilin iyununda Bakıda keçirilməsi barədə qərar 2012-ci ilin dekabrında Avropa Olimpiya Komitəsinin Baş Məclisində qəbul edilib. Avropanın idman-olimpiya ailəsi Bakının namizədliyini böyük səs çoxluğu ilə dəstəkləyib. Beləliklə, demək mümkündür ki, Bakıda böyük müvəffəqiyyətlə keçən Oyunlarla həm də Avropaya qarşı ədalətsizliyə son qoyulur. Prezident İlham Əliyev "Bakı-2015" birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın adından birinci Avropa Oyunları ilə bağlı Olimpiya Ailəsinin üzvləri üçün təşkil edilən qəbuldakı çıxışında bu məqamı da xüsusi vurğulayıb: "2012-ci il dekabrın 12-də qəbul edilən qərar tarixi qərar idi... Avropa idmanı üçün isə bu, ədaləti bərpa edən qərar oldu. Çünki bildiyimiz kimi, digər qitələr uzun illərdir ki, öz Oyunlarını keçirirlər və yalnız Avropanın belə bir Oyunları yox idi. Buna görə də, düşünürəm ki, bu, ədalətin təzahürü oldu".

Azərbaycan isə, öz növbəsində, yarışlara çox yüksək səviyyədə hazırlaşıb. Məlumdur ki, belə genişmiqyaslı yarışların təşkili üçün ev sahibi ölkələrinə təxminən 7 il vaxt verilir. Azərbaycana gəldikdə, ölkəmiz bu sahədə də rekorda imza ataraq Oyunlara hazırlığı cəmi 2,5 ilə ən yüksək səviyyədə tamamlayıb. Bununla bağlı məmnunluğunu ifadə edən Prezident İlham Əliyev deyib: "Biz gərgin çalışdıq, insanlarımızın, qonaqlarımızın və bütün Avropanın yaddaşında qalacaq səviyyədə Oyunları təşkil etdik".

İdmançılarımızın Oyunlardakı möhtəşəm qələbələri Azərbaycanın yüksək səviyyəli idman ölkəsi olduğunu dünyaya bir daha nümayiş etdirir

Məqsədyönlü siyasət sayəsində Azərbaycanın artıq idman ölkəsinə çevrildiyini söyləmək mümkündür. Davamlı dövlət qayğısı sayəsində ölkəmizdə idmanın maddi-texniki bazası əhəmiyyətli şəkildə möhkəmləndirilib. Təkcə onu vurğulamaq kifayətdir ki, qısa müstəqillik tarixində respublikamızda 50-dək Olimpiya kompleksi tikilib ki, onların da 40-ı bölgələrdə yerləşir. Bundan başqa, ayrı-ayrı idman klublarının təlim-məşq bazaları ən yüksək tələblərə cavab verir. Birinci Avropa Oyunlarına hazırlıq çərçivəsində isə möhtəşəm Olimpiya Stadionu, ən müasir tələblərə cavab verən 5 yeni idman obyekti inşa edilib, bir sıra mövcud qurğularda əsaslı yenidənqurma işləri həyata keçirilib. Prezident İlham Əliyevin vurğuladığı kimi, "bu gün Bakı regionun və bəlkə də, dünyanın ən inkişaf etmiş idman infrastrukturuna malik şəhərlərindən biridir".

Bütün bunlar, öz növbəsində, idmançılarımızın mötəbər beynəlxalq yarışlarda uğurlar qazanmalarını şərtləndirir.

Ölkəmizin idmançıları birinci Avropa Oyunlarına da böyük şəylə hazırlaşıblar. Oyunlarda Azərbaycan müxtəlif idman növlərində 291 idmançı ilə təmsil olunur. Komandamızın tərkibində ölkəmizin ən güclü idmançıları yer alıblar. Ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından ruhlanan idmançılarımız yarışların ilk günündən bizi yüksək nəticələrlə sevindirirlər. Azərbaycan komandasının tərkibində Oyunlarda iştirak edən Radik İsayev, Xetaq Qazyumov, Toğrul Əsgərov, Elvin Mürsəliyev, Rəsul Çunayev, İrina Zaretska, Ayxan Mamayev və digərləri bütün rəqiblərini məğlub edərək qızıl medallar qazanıblar. Ümumiyyətlə, Azərbaycan Oyunlarda ən çox sayda medal qazanan ölkələr sırasında yer alır və Rusiya, Almaniya, Böyük Britaniya kimi yüksək idman ənənələrinə malik olan ölkələrlə rəqabət aparır. İdmançılarımızın Oyunlardakı möhtəşəm qələbələri Azərbaycanın yüksək səviyyəli idman ölkəsi olduğunu dünyaya bir daha nümayiş etdirir.

# "Bakı-2015" birinci Avropa Oyunlarının möhtəşəm bağlanış mərasimi

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

**Son 17 gün ərzində dünya idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 17 gündə tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına layiqincə ev sahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə idmançını, nümayəndə heyətlərinin üzvlərini, bu Oyunları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi.**

Möhtəşəm idman bayramı təntənəli bağlanış mərasimi ilə sona çatdı. Mərasimin keçirildiyi, birinci Avropa Oyunlarının yadigarı olan Bakı Olimpiya Stadionu yenə də izdihamlı idi. Bağlanış mərasiminə olan hədsiz maraq Oyunların böyük uğurundan xəbər verirdi. İdman mütəxəssisləri, analitiklər hesab edirlər ki, "Bakı-2015" gözlənildiyindən, təsəvvür edildiyindən də möhtəşəm alındı. "Bir çox ev sahibi şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beş-yeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi" - Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin bu sözləri həqiqətən qürurvericidir. Onun qeyd etdiyi kimi, iyunun 17 günü möhtəşəm idman bayramı və birinci Avropa Oyunlarına layiq tədbir kimi yadda qaldı.

Azərbaycan ötən 17 gündə 21 qızıl medal sevinci yaşayıb. Biz bu göstəriciyə görə yalnız Rusiyadan geri qalaraq ikinci yerə çıxmışıq. Avropanın 49 ölkəsindən 48-ni geridə qoyaraq qitə ikincisi olmaq doğrudan da böyük şərəfdir. İdman həvəskarlarını, Bakı sakinlərini bağlanış mərasiminə gətirən əsas amillərdən biri də bu idi: qələbədən doğan sevinc və iftixar hissləri. Bu hissləri stadiona toplaşan on minlərlə insanın hər birinin simasından oxumaq olardı.

Odlar Yurdu Azərbaycan öz alovunu dünya ilə bölüşdü. Onun işığı hamımızın qəlbində yaşayır. Bağlanış mərasimində iştirak edən 1600-dən çox könüllünün əksəriyyəti azərbaycanlıdır. Həmçinin 17 müxtəlif ölkədən də könüllülər cəlb olunub. Mərasimin təşkilinə 28 ölkədən 300 nəfərdən çox yaradıcı heyət və 34 ölkədən müxtəlif sahələrdə ixtisaslaşmış minədək mütəxəssis cəlb olunub.

Bağlanış mərasimi stadionda şeypurların səsləndirilməsi ilə başladı. Nəzərlər Prezident lojasına yönəldi. Tamaşaçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanı, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini, Bolqarıstan Prezidenti Rosen Plevneliyevi, Rusiya Dövlət Dumasının sədri Sergey Narışkini, Lixtenşteyn parlamentinin sədri Albert Friki, Avropa Olimpiya Komitəsinin, Beynəlxalq Olimpiya Komitəsinin nümayəndələrini, Avropa Olimpiya ailəsinin üzvlərini hərarətli alqışlarla salamladılar.

Azərbaycanın dövlət bayrağı stadiona gətirilir və Avropa Olimpiya Komitəsinin bayrağının yanında ucaldılır. Bu məqamda idmançılarımızın ilk Avropa Oyunlarında qazandıqları qələbələrin şərəfinə dövlət bayrağımızın 21 dəfə yüksəyə ucaldığını, dövlət himnimizin səsləndiyini bir daha qürur hissi ilə xatırlayırıq.

Səhnədəki üç nəhəng heykəl fırlandıqca musiqinin ritmi dəyişir. Açılan hər bir ətəyin uclarından 24 ifaçı tutur. Musiqi rok sintezinə çevrildikdə isə ənənəvi ətəklər müasir parlaq naxışlara dönür. Bunun ardınca heykəlləri hərəkətə gətirən 128 ifaçı görünür. Səhnədə dövrə vuran yüzlərlə rəqqasə mozaika formasında naxışlar yaradır. Stadionda qurulan "Qız qalası"nın divarları aralanır və tamaşaçının gözü qarşısında Bakının yeni rəmzi olan "Alov qüllələri" canlanır. Bu səhnə müasirliyin keçmişdən qaynaqlandığını əyani şəkildə təcəssüm etdirir.

Arenada "Çal-oyna" xalq mahnısının melodiyası eşidilir. Azərbaycan Dövlət Uşaq Filarmoniyası xorunun ifa etdiyi bu mahnı 17 gün ərzində qəlbimizi idman ustalığı və cəsarəti ilə fəth edən 6 min atletin şərəfinə səslənən bayram havası təsiri bağışlayır. Mahnının sədaları altında stadiona bayraqdaşıyanlar daxil olurlar. Onlar iki cərgədə qarşı-qarşıya hərəkət edirlər. Bir cərgənin önündə Olimpiya Oyunlarının vətəni Yunanıstanın, digərinin önündə ilk Avropa Oyunlarının ev sahibi Azərbaycanın bayraqları dalğalanır. Uşaq xorunun üzvləri sülh və birlik rəmzi olan su zanbaqlarını komandaların bayraqdarlarına verirlər.

İdmançılar tribunaların önündən keçirlər. Tamaşaçılar "Bakı-2015"in iştirakçı ölkələrinin nümayəndələrini alqışlayırlar.

Təbii ki, Azərbaycan idmançılarının payına daha çox alqış düşür. Bu da təsadüfi deyil. İdmançılarımız birinci Avropa Oyunlarında 21 qızıl, 15 gümüş və 20 bürünc medalını qazandılar. Bununla da Azərbaycan qitə üzrə ikinci yeri tutmaqla, idman ölkəsi olduğunu bir daha sübuta yetirdi.

İdmançıların birlik və dostluq rəmzinə çevrilən paradı başa çatdı. Onlar stadionda dövrə vurub tribunalarda yerlərini tutdular.

Azərbaycanın birinci xanımı, "Bakı-2015" ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva mərasimdə çıxış etdi.

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış etdi.

## 15 İYUN - MİLLİ QURTULUŞ GÜNÜDÜR

# QURTULUŞ GÜNÜ QEYD OLUNMUŞDUR

**15 iyun-Milli Qurtuluş Günü geniş qeyd olunmuşdur. Tədbir iştirakçıları əvvəlcə, ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmiş və abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.**

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açmış və 15 iyun-Milli Qurtuluş Günü münasibətilə xalqımızı və tədbir iştirakçılarını təbrik etmiş, onlara möhkəm cansağlığı və xalqımızın xoş gələcəyi naminə fəaliyyətlərində uğurlar arzulamışdır. Sonra bildirmişdir ki, XX əsrdə Azərbaycan xalqı Heydər Əliyevin şəxsində özünün güclü Ümummilli Liderini yetişdirmiş və onun ətrafında sıx birləşmişdir. Xüsusilə, ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslər milli mənafe naminə bütün gücünü səfərbər edərək xalqa doğru yol göstərən yeni liderə zərurət yaratmışdı. Həmin vaxt ölkədəki ağır vəziyyətə çox həssas yanaşan, dövlət müstəqilliyinin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak edən Heydər Əliyev bütün qadağalara və təzyiqlərə baxmayaraq, vətənə dönmüş, dar günündə xalqın yanında olmuş, onun problemlərinə, ağrı-acısına şərik çıxmışdır. Hamıya yaxşı məlumdur ki, Bakıda 1990-cı ilin qanlı yanvar hadisələri zamanı Heydər Əliyev xalqımıza qarşı Soyqırım törətmiş Rus İmperiyasını və Sovet ordusunu pisləyən bəyanatla çıxış etmiş və Azərbaycanın haqq səsini bütün dünyaya yaymışdır. 1993-cü ilin iyununda Azərbaycan xalqı çətin imtahan qarşısında qalmışdı. Ölkə dayanmadan vətəndaş müharibəsi kimi dəhşətli uçuruma doğru gedirdi. Belə bir ağır şəraitdə Azərbaycan xalqı görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtmasını daha böyük qətiyyətlə tələb etməyə başladı. Əslində, bu tələb 1988-ci il mitinqlərdən başlayaraq irəli sürürlürdü. Xalqımız belə böhranlı və mürəkkəb zamanda Heydər Əliyev təcrübəsindən, uzaqgörənliyindən istifadə olunmasını, onun yenidən siyasi hakimiyyətə qayıtmasını tələb edirdi. Belə də oldu. Bu, sözün əsl mənasında "Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib meydana atılan Vətən oğlunun öz xalqı və öz Vətəni qarşısında misilsiz fədədakarlığı idi.




Azərbaycan dövlətçiliyinin xilaskarı kimi yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev öz sarsılmaz iradəsi, əzmi, zəngin dövlətçilik təcrübəsi ilə tezliklə bu mühüm vəzifələrin öhtəsindən gəlməyə tam qadir olduğunu göstərdi. Siyasi hakimiyyətə qayıdışının ilk anından Heydər Əliyev elə bir dövlət qurmağa başladı ki, bu dövlət ölkəmizi və xalqımızı qorumağı bacardı. Həmin vaxt ölkədə yaranmış sabitliyi, inkişafı gözü götürməyən, hakimiyyətə can atan bəzi qüvvələr nəyin hesabına olsa da, özlərinin hakimiyyətə gəlmələri naminə bir neçə dəfə dövlət çevrilişinə cəhdlər etdilər. Lakin ümummilli lider Heydər Əliyevin qətiyyəti, müdrikliyi, xalqla bir olması nəticəsində bu çevrilişlərin hamısının qarşısı alındı. Ümummilli lider Heydər Əliyev tarixin onun qarşısına qoyduğu şərəfli bir missiyanı - Azərbaycanın parçalanmaq və bir dövlət kimi məhv olmaq təhlükəsindən qurtarmaq və müstəqilliyimizi qoruyub saxlamaq vəzifəsini şərəflə yerinə yetirdi. Heydər Əliyev bu yolda gördüyü işlərlə, iqtisadi islahatlar, hüquqi, demokratik dövlət quruculuğu və ölkəmizin dünyaya inteqrasiyası sahəsindəki fəaliyyəti nəticəsində Azərbaycanın ən görkəmli dövlət xadimi kimi dünya tarixinə düşdü.

Xalqımızın ən böyük xoşbəxtliyi isə Heydər Əliyev siyasi kursunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilməsidir. Ulu öndərin vaxtilə dediyi fikirlər bu gün öz təsdiqini bir daha tapdı: "İnarıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Biz bu gün fəxarət hissi keçiririk və qürur duyuruq ki, ulu öndər Heydər Əliyevin yaradıb, bizə əmanət qoyub getdiyi Azərbaycan dövləti bu gün möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev cənabları tərəfindən qətiyyətlə qorunub saxlanılır və daha da möhkəmləndirilir. Ölkəmizdə müstəqilliyimizin, dövlətimizin daha da gücləndirilməsi, Azərbaycanın güclü iqtisadiyyatı olan, dinamik inkişaf edən ölkəyə çevirilməsi, ordumuzun gücünün daha da artırılması sahəsində çox səmərəli işlər aparılır. İndi bütün azərbaycanlılar fəxr edir ki, ölkəmizin qazandığı naliyyətlər beynəlxalaq müstəvidə də etiraf edilir və yüksək qiymətləndirilir. Ölkəmizin beynəlxalq aləmdə artan nüfuzunun nəticəsidir ki, dünyada bir çox nüfuzlu təşkilatlar öz tədbirlərinin Azərbaycanda keçirilməsi haqqında qərarlar qəbul edirlər. Azərbaycan özünün sürətli inkişafı sayəsində I Avropa Oyunlarına ev sahibliyi etmək hüququ qazanıb. Bu, Azərbaycanın iqtisadi inkişafına, siyasi sabitliyinin, təhlükəsiz dövlət olmasının, dünyanın aparıcı idman ölkələrindən birinə çevrilməsinin məntiqi nəticəsi, həmçinin, sadalanan uğurların Avropa səviyyəsində etirafıdır. Ümumilikdə isə, Azərbaycan Avropanın müasir infrastruktura malik lider idman ölkələrindən biridir. I Avropa Oyunları Avropanın idman tarixində ilk qitə yarışmasıdır. Ölkəmiz Avropa tarixinə yeni bir səhifə yazacaqdır. Bundan 100 il sonra da İlk Avropa Oyunları tarixinə nəzər salınanda bu yarışların ilk dəfə Azərbaycanda keçirildiyi fəxarətlə qeyd olunacaqdır. Bu, əlbəttə ölkəmiz üçün çox qürur vericidir. Baxmayaraq ki, hazırlıq üçün bizim cəmi iki il yarım vaxtımız qalmışdı, lakin, Azərbaycanda bu Oyunlar ən yüksək səviyyədə, Yay Olimpiya Oyunları səviyyəsində keçiriləcəkdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov xalqımızı belə bir möhtəşəm idman bayramı münasibətilə təbrik etmiş, bütün idmançılarımıza parlaq qələbələr və idman uğurları arzulamışdır. Söyləmişdir ki, ölkəmizdə həyata keçirilən düzgün, uğurlu daxili və xarici siyasət, əldə olunmuş iqtisadi uğurlar, ölkəmizin sürətlə inkişaf edən qüdrətli ölkəyə çevirilməsi, beynəlxalq aləmdə böyük nüfuz sahibi olması nəticəsində ermənilər tərəfindən işğal olunmuş torpaqlarımız da yaxın vaxtlarda azad olunacaqdır.

Daha sonra YAP Qazax rayon Təşkilatının sədri Həmid Pənahov məruzə ilə çıxış etmiş, o dövrdə ölkədə baş verən hadisələrdən, xalqın tələbi ilə ulu öndər, ümummilli lider Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsindən, dövlətçiliyimizin məhv olması təhlükəsinin qarşısının alınmasından ətraflı danışmışdır. YAP Qazax rayon Təşkilatının Şura üzvü, Suvarma Sistemləri İdarəsinin rəisi Abbas Göyüşov, YAP Qazax rayon Təşkilatı Qadınlar Şurasının sədri Asya Alhüseynova, YAP Qazax rayon Təşkilatının Şura üzvü, Qazax Dövlət Sosial İqtisadi Kollecinin müəllimi Tərlan Bədəlova və AMİ Qazax filialının müəllimi Mübariz Süleymanov çıxış etmişlər.

## 23 İYUN - DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMIDIR

# TƏDBİR KEÇİRİLMİŞDİR



**23 iyun - Dövlət Qulluqçularının peşə bayramı ilə əlaqədar tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyətində dəyirmi masa ətrafında keçirilən tədbirdə yerli icra hakimiyyəti orqanlarında çalışan dövlət qulluqçuları iştirak etmişdir.**

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbiri giriş sözü ilə açaraq 23 iyun- Dövlət qulluqçularının peşə bayramı günü münasibətilə tədbir iştirakçılarını təbrik etmişdir. Bildirmişdir ki, bu gün iftixar hissi ilə demək olar ki, Azərbaycanın bütün sahələr üzrə mütəxəssisləri, peşəkar kadrları, dövlət qulluqçuları var və onlar öz vəzifə borclarını ləyaqətlə yerinə yetirirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 25 may 2006-cı il tarixli "Dövlət qulluqçularının peşə bayramı gününün təsis edilməsi haqqında" Sərəncamı ilə 23 iyun respublikamızda dövlət qulluqçularının peşə bayramı günü kimi qeyd edilir. Bu əlamətdar tarix dövlət qulluqçularının cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi həyatındakı roluna verilən ən yüksək qiymət olmaqla, həm də onları dövlət qulluğu prosesində daha fəal, əzmkar olmağa sövq edir.

Rayon İcra Hakimiyyəti Başçısının I müavini Fərman Nağdalıyev tədbirdə çıxış edərək dövlət qulluqçularını peşə bayramları münasibətilə təbrik etmiş, onlara gələcək işlərində uğurlar arzulamışdır.

Dövlət qulluqçularından İcra Hakimiyyəti Aparatında tikinti şöbəsinin müdiri Mehdi Həsənov, aparıcı məsləhətçi Hüseyn Hüseynov və başqaları çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Ölkə Prezidenti İlham Əliyev cənablarına və rayon rəhbərliyinə öz dərin minnətdarlıqlarını bildirmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Ayaz Əsgərov tədbirin sonunda dövlət qulluqçularını peşə bayramı münasibətilə bir daha səmimi qəlbdən təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulamış və Hüseyn Hüseynovun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 22 iyun 2015-ci il tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunduğunu bildirmişdir.

Bu xəbər tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır.

Sonda İcra Hakimiyyəti Aparatında aparıcı məsləhətçi Fariz Vəliyevə "Tərəqqi" medalı təqdim edilmişdir.



## 26 İYUN-SİLAHLI QÜVVƏLƏR GÜNÜDÜR

# HƏRBİ HİSSƏDƏ GÖRÜŞ OLMUŞDUR

**Rayonumuzdakı N saylı hərbi hissədə 26 iyun-Silahlı Qüvvələr Günü münasibətilə bayram tədbiri keçirilmişdir.**

Əvvəlcə, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Tədbiri N saylı Hərbi Hissə komandirinin siyasi işlər üzrə muavini, polkovnik-leytenant Elmar Zeynalabdinov açmışdır.

Rayon İcra Hakimiyyəti Başçısının birinci muavini Fərman Nağdalıyev, Respublika Hərbi Prokurorluğunun nümayəndəsi, ədliyyə polkovnik-leytenantı İlyas Rzayev və başqaları çıxış etmişlər.

Azərbaycan Respublikasının Baş Prokurorunun müavini, Respublikanın Hərbi Prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin Silahlı Qüvvələr Günü münasibətilə təbrik məktubu oxunmuşdur.

Çıxış edənlər Silahlı Qüvvələr Günü münasibətilə xalqımızı və hərbi hissənin əsgər və zabitlərini təbrik etmiş, onlara möhkəm cansağlığı, ailə xoşbəxtliyi və torpaqlarımızın erməni işğalından azad olunması, Vətənimizin və ölkəmizin sərhədlərinin qorunması sahəsindəki fəaliyyətlərində uğurlar arzulamışlar.




Çıxışlar zamanı bildirilmişdir ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində dövlət siyasətinin nəticəsi olaraq son illərdə Silahlı Qüvvələrimiz bütün qoşun növləri üzrə inkişaf edərək möhkəmlənmiş, ordumuzun maddi-texniki bazası gücləndirilmiş və döyüş qabiliyyəti artırılmışdır. Ulu öndər Heydər Əliyev orduya hər kəsin qayğı göstərməsini tövsiyə etmişdir.

Ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda iqtisadi inkişafın sürətlənməsi ölkəmizin təhülkəsizlik və müdafiə potensialının möhkəmlənməsinə bilavasitə təsir göstərmiş, Silahlı Qüvvələrdə modern islahatlar aparmağa imkan vermiş, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsinə, eyni zamanda, hərbi qulluqçuların sosial rifahının daha da yaxşılaşdırılmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müntəzəm olaraq cəbhə bölgələrinə səfər edərək əsgər və zabitlərlə görüşlər keçirilməsi, xidmətdə fərqlənən hərbi qulluqçulara Vətənin mükafatlarını təqdim etməsi Silahlı Qüvvələrimizin şəxsi heyətində böyük ruh yüksəkliyi yaratmış və onları torpaqlarımızın işğaldan azad olunmasında yeni-yeni mübarizələrə ruhlandırmışdır.

Rayonun "Göyəzən" instrumental ansamblının və ansambl müğənnilərinin çıxışları, oynaq rəqs havaları, müddətdən artıq hərbi xidmət qulluqçusu Orxan Məmmədovun oxuduğu mahnılar hərbi hissənin əsgər və zabitlərinə xoş ovqat bəxş etmişdir.

Sonda Həbi Hissənin hərbi xidmətdə fərqlənən əsgər və zabitlərinə Fəxri Fərmanlar təqdim olunmuş və qiymətli hədiyyələr verilmişdir.

## 2015-ci il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

| S/№-si | Qəbul edən şəxs | Tutduğu vəzifə | Qəbul günləri | Qəbul vaxtı |
|---|---|---|---|---|
| 1. | Əsgərov Ayaz Nəriman oğlu | rayon İcra Hakimiyyətinin Başçısı | Hər həftənin V günü | $10^{00}$-dan |
| 2. | Nağdalıyev Fərman Məmməd oğlu | Rayon İcra Hakimiyyəti başçısının birinci müavini | Hər həftənin I günü | $10^{00}$-dan |
| 3. | Musayev Tahir Xaliddin oğlu | rayon İcra Hakimiyyəti başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Hər həftənin II günü | $10^{00}$-dan |
| 4. | Həsənova Gulaya Ziyad qızı | Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Hər həftənin III günü | $10^{00}$-dan |
| 5. | Abışov Gündüz Fəxrəddin oğlu<br>Alıyev Məmməd Oruc oğlu<br>Həsənov Mehdi Alı oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri<br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Hər həftənin IV günü | $10^{00}$-dan |

***Qeyd:***

**1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.**

**2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.**

**3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :**

**022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70**

# "Azərbaycan milli mətbuatı 140: inkişaf yolu və müasir dövrün çağırışları"

***Gəncədə "Azərbaycan milli mətbuatı 140: inkişaf yolu və müasir dövrün çağırışları" mövzusunda konfrans keçirilmişdir.***

Konfransdan əvvəl milli mətbuatımızın yaranmasının 140 illiyi münasibətilə Gəncədə "Azərmətbuatyayım" Açıq Səhmdar Cəmiyyəti Mətbuat Evinin açılışı olmuşdur.

Tədbir iştirakçıları əvvəlcə şəhərin mərkəzində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoymuşlar.

Sonra iştirakçılar binada yaradılan şəraitlə tanış olmuşdur. Bildirilmişdir ki, Gəncəçayın sağ sahilində yerləşən, 460 kvadratmetrlik ərazini əhatə edən bina informasiya-kommunikasiya texnologiyaları ilə tam təmin olunub. Burada sürətli internet şəbəkəsi yaradılıb ki, bu da kütləvi informasiya vasitələrinin nümayəndələrinə məlumatları operativ ötürüb-qəbul etməyə imkan verir. Bundan əlavə, Mətbuat Evində iş və istirahət otaqları, konfrans zalı da fəaliyyət göstərəcək.

Daha sonra Heydər Əliyev Mərkəzində "Azərbaycan milli mətbuatı 140: inkişaf yolu və müasir dövrün çağırışları" mövzusunda konfrans keçirilmişdir.



Konfransda çıxış edən Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev mətbuat nümayəndələrini əlamətdar yubiley münasibətilə təbrik etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev konfransda çıxış edərək ölkəmizdə KİV nümayəndələrinə göstərilən dövlət qayğısından, son illərdə medianın inkişafı istiqamətində görülən işlərdən danışmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş milli mətbuatımızın inkişafından, müstəqillik dövründə bu sahədə həyata keçirilmiş genişmiqyaslı islahatlardan söhbət açmışdır.

Mətbuat Şurasının sədri Əflatun Amaşov milli mətbuatımızın 140 illiyi münasibətilə təbriklərini çatdırmış, müasir müstəqil Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısından danışmışdır.

"Ədalət" qəzetinin təsisçisi, Milli Məclisin deputatı Aqil Abbas Azərbaycan mətbuatının inkişafına, jurnalistlərə göstərilən dövlət qayğısından danışaraq qeyd etmişdir ki, Azərbaycan Prezidentinin milli mətbuatımızın 140 illik yubileyinin qeyd edilməsi ilə bağlı Sərəncamı jurnalistikamızın daha da inkişafında mühüm rol oynayacaq.

Konfransda paytaxt və bölgələrdə fəaliyyət göstərən qəzet redaktorları və rayon icra hakimiyyəti başçıları aparatlarının nümayəndələri də çıxış edərək region mətbuatının bugünkü durumundan, son dövrlərdə bu sahədəki inkişafdan, jurnalistlərə göstərilən dövlət qayğısından danışmışlar.

Konfransda "Göyəzən" qəzetinin baş redaktoru Elçin İsmayıl məruzə ilə çıxış etmişdir.

## 2 İYUL POLİS İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR

# DÖVLƏTƏ, PREZİDENTƏ, XALQA SADİQ




**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası bu gün özünün iqtisadi inkişaf səviyyəsinə və ölkədəki daxili sabitliyə görə dünya ölkələri arasında ən öncül yerlərdən birini tutur. Bu gün 97 illiyini qeyd etdiyimiz Respublika Daxili İşlər Orqanları çətin, lakin şərəfli bir yol keçmişdir.**

Bünövrəsi Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulmuş və sonradan sovet birliyi dövründə fəaliyyət göstərmiş daxili işlər orqanları zamanın bütün sınaqlarından alını açıq çıxmış, üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra isə ermənilərin təcavüzünə qarşı mübarizəni öz öhdəsinə götürmüş və Azərbaycan polisi bu yolda şəhidlər vermişdir.

Azərbaycan müstəqillik qazanmasına baxmayaraq ilk illər bütün sahələrdə olduğu kimi daxili işlər orqanlarında da bir sıra çatışmazlıqlar özünü biruzə vermiş, polis sözün əsl mənasında formalaşa bilməmişdir. Bu, bir tərəfdən ölkədəki hərcmərclikdən, digər tərəfdən isə qanunlardakı boşluqlardan, eyni zamanda lazımi qanunların olmamasından irəli gəlirdi. Ümummili lider Heydər Əliyevin 1993-cü il 15 iyunda 2-ci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrdə olduğu kimi daxili işlər orqanlarında da bir canlanma irəli gəldi. Azərbaycan polisi qəbul olunmuş qanunlar əsasında formalaşmağa, yeniləşməyə, dövlətə, prezidentə və xalqa layiq formada xidmət göstərməyə başladı. Məhz həmin illərdə daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən hüququ bazanın yaradılmasına başlanıldı. "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunlar, "Daxili İşlər Nazirliyi Haqqında" və "Daxili İşlər Orqanlarında xidmət keçmə haqqında" Əsasnamələr, digər normativ hüquqi aktlar cinayətkarlıqla mübarizə və ictimai qaydanın təmini funksiyasını həyata keçirən Azərbaycan polisinin hüquq və vəzifələrinin daha dəqiq və dürüst müəyyənləşdirilməsinə, yüksək nizam-intizamın yaradılmasına, qanunçuluğun möhkəmləndirilməsinə əlverişli hüquqi zəmin yaratdı.

Tədqirəlayiq haldır ki, ulu öndərin layiqli davamçısı möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Hörmətli Prezidentin təşəbbüsü ilə 2004-cü ilin iyun ayının 30-da qəbul edilmiş və uğurla icra edilən "Azərbaycan Respublikasında Polis Orqanlarının fəaliyyətinin təkminləşdirilməsinə dair Dövlət Proqramı" cinayətkarlıqla mübarizənin səmərəliliyinin artırılmasında, bu sahədə polisin müasir texnika və avadanlıqlarla təchizatının gücləndirilməsində, şəxsi heyətin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasında, bütövlükdə daxili işlər orqanlarında xidməti fəaliyyətin beynəlxalq standartlara uyğunlaşdırılması və peşəkar kadr rəyinin formalaşdırılmasına yönəlmiş islahatların müvəffəqiyyətlə davam etdirilməsində mühüm rol oynamışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Daxili İşlər Orqanları əməkdaşlarına göstərdiyi qayğı və diqqət polis işçilərini doğma Vətənə bundan sonra da sədaqətlə xidmət etməyə, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydaların və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində daha da əzmlə çalışmağa sövq edir. Ölkə başçısının Azərbaycan Polisinin əməyinə verdiyi yüksək qiymət, polisin qətiyyəti və cinayətkarlara qarşı barışmaz sərt olması, eyni zamanda insanlarla münasibətdə yüksək mədəniyyət nümayiş etdirməsi, xalqın daha böyük rəğbətini qazanması kimi mühüm tələb və tövsiyələri hər bir polis əməkdaşının, o cümlədən Qazax rayon polis şöbəsinin şəxsi heyətinin xidməti fəaliyyətinin əsasını təşkil edir.

Şöbəmizin əməkdaşları öz peşə bayramlarını əldə etdikləri yüksək göstəricilərlə qeyd edirlər. Belə ki, yaradılmış belə bir işgüzar şəraitdə Qazax RPŞ-nin şəxsi heyəti cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin qorunması sahəsində 2015-ci ilin 6 ayı ərzində bir sıra tədbirlər həyata keçirmişlər.

Hesabat dövründə rayon ərazisində qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, axtarışda olanların tutulması istiqamətində müəyyən işlər görülmüş, ictimai-siyasi sabitliyin qorunması və əməliyyat şəraitinə nəzarət təmin edilmişdir. Görülmüş bu təqdirəlayiq tədbirlərin nəticəsidir ki, bir çox ağır, əhali arasında rezonansa və narahatçılığa səbəb olan şəxsiyyət əleyhinə, şəxsi və dövlət mülkiyyəti əleyhinə olan cinayətlərin artması, qəzanın labüdlüyü prinsipi əsasən təmin edilmiş, axtarışda olan cinayətkarların tutulması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Hesabat dövründə Qazax rayonunun ərazisində baş vermiş cinayət hadisələrinin sayı xeyli dərəcədə azalmışdır. Bu da polis əməkdaşlarının öz peşə borclarına məsuliyyətlə yanaşmasından, cinayət hadisələrinin baş verə bilmə səbəblərinin vaxtında aradan qaldırılmasından irəli gəlir. Bununla yanaşı şöbənin kollektivi baş vermiş cinayətlərin üstünün açılmasında da fərqlənərək təqdirəlayiq nəticələr əldə etmişdir. Bunun nəticəsidir ki, rayon ərazisində həm cinayət hadisələrinin baş verməsi halları azalmış, həm də cinayətlərin açılması ən yüksək faizlə təmin edilmişdir.

2015-ci ilin 6 ayı ərzində müxtəlif cinayət törədərək istintaq və məhkəmə orqanlarından yayınıb axtarışda olanlar haqqında vaxtlı-vaxtında tədbirlər görülmüşdür. Nəticədə axtarışda olanlar tutularaq istintaq və məhkəmə orqanlarına təhvil verilmişdir.

Hesabat dövründə rayon ərazisində keçən ilə nisbətən baş vermiş ağır və xüsusilə ağır cinayətlərin sayı da azalmış, böyük ictimai təhlükə törətməyən cinayətlərin faizi yox dərəcəsinə enmişdir.

Şəxsiyyət, eyni zamanda mülkiyyət əleyhinə olan cinayətlər keçən illə müqayisədə xeyli dərəcədə azalmışdır. Hesabat dövründə keçmiş illərdən bağlı qalmış cinayət işlərinin açılması da təmin edilmişdir.

Narkomaniyaya qarşı mübarizə sahəsində məlum Fərman və Proqramdan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə Qazax RPŞ-nin əməkdaşları tərəfindən müəyyən işlər görülmüşdür. Hesabat dövrü ərzində ictimaiyyətlə bağlı olan bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, narkomaniyaya qarşı mübarizə məqsədilə rayonun bütün ərazisində, idarə və müəssisələrdə, ən başlıcası isə ümumtəhsil məktəblərində açıq görüşlər keçirilmiş, əhali daha yaxşı səviyyədə məlumatlandırılmışdır. Bunun nəticəsidir ki, rayon ərazisində bu tipli hadisələrin baş vermə faizi demək olar ki, ən aşağı həddə enmişdir.

Günün ən vacib məsələlərindən biri də vətəndaşlarda saxlanılan qanunsuz silahların yığılmasıdır ki, bu sahədə Qazax RPŞ-nin əməkdaşları tərəfindən bir sıra tədbirlər həyata keçirilmiş və ümumi işə öz müsbət təsirini göstərmişdir.

Rayon polis şöbəsinin şəxsi heyəti əsasən mənəvi cəhətdən sağlam, peşə hazırlığı baxımından qənaətbəxşdir. Şöbənin kollektivi Respublika Prezidentinin və Daxili İşlər Nazirliyi rəhbərliyinin Daxili İşlər Orqanları qarşısında qoyduğu vəzifələri yerinə yetirmək iqtidarındadır. Bunun üçün şöbənin əməkdaşlarının hər biri öz işinə tələbkarlıqla yanaşır, daxili sabitliyin qorunması, ictimai asayişin mühafizəsi və cinayətkarlığa qarşı mübarizə sahəsində öz peşə vəzifələrini layiqincə yerinə yetirirlər.

Qazax rayon Polis şöbəsinin bütün şəxsi heyəti adından möhtərəm Prezidentimiz cənab İlham Əliyevə və Daxili İşlər Nazirliyinin rəhbərliyinə öz minnətdarlığımı bildirməklə qeyd etmək istəyirəm ki, biz bundan sonra da üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirəcəyik. Bu, bizim hər birimizin peşə və vətəndaşlıq borcumuzdur.

2 iyul Polis İşçilərinin Peşə Bayramı Günü münasibətilə bütün polis işçilərini təbrik edir, onlara bu çətin və şərəfli işdə müvəffəqiyyətlər arzulayıram.

**Zöhrab İSMAYILOV,**
**Qazax rayon polis şöbəsinin rəisi,**
**polis polkovniki**

## 17 İYUN - SƏHİYYƏ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI GÜNÜDÜR

# AZƏRBAYCAN TİBB ELMİNİN BÖYÜK HAMİSİ

**Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin dərin köklərinin, möhkəm dayaqlarının olması XX əsrin ikinci yarısında özünü daha bariz şəkildə göstərməyə başlamışdır. Onların kökləri əsrlərin, qərinələrin, illərin köksündə məskən salaraq görkəmli şəxsiyyətlərin, müdrik insanların uzaqgörən düha sahiblərinin dayağına arxalanıb.**

Belə dayaqlar içərisində uzunmüddətli bir dövr üçün bütün sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin də bütün ağırlıqlarını öz çiyinləri üzərinə götürərək onu inkişaf etdirən və onun gələcək perspektivlərini müəyyənləşdirən dahi Heydər Əliyev dəst-xətti, Heydər Əliyev qüdrəti öz möhtəşəmliyi ilə kəskin surətdə seçilir və bənzərsizliyi ilə fərqlənir. Ona görə də müasir Azərbaycan Respublikasının memarı olan Heydər Əliyev ideyalarının dəyərli nəticələri Azərbaycan səhiyyəsinin də sarsılmaz dayağı, ilhamverici qüvvəsidir. Ulu öndərin dünyəvi ideyalarına söykənən siyasət əbədidir, həmişəyaşardır, qaranlıqlara nur çiləyən sönməz mayakdır.

1969-cu il iyul ayının 14-də ulu öndər Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbər təyin edilməsi respublikamızda əhali arasında xoş əhval-ruhiyyəli canlanma, gələcəyə nikbinliklə baxmağa əsas verən sevincli anlar bəxş etmişdir. Azərbaycan xalqının bütün zümrələrindən olan insanların bu seçimə ürəkdən sevinməsinin əsas səbəbi onların Azərbaycana rəhbərliyə gəlmiş bu fövqəladə insana sözün həqiqi mənasında inanması, ona ümid çırağı kimi baxması idi. Çox keçmədi ki, milli lider zirvəsinə yüksələrək dünya siyasətçiləri sırasında öncül mövqeyə çıxan dahi Heydər Əliyev fenomeni ona bəslənən ümidləri doğruldaraq əsl xariqələr yaratmağa başladı. Xalqın öz liderinə, onun möhtəşəm ideyalarına olan inamının geniş vüsət alması ulu öndər tərəfindən yerinə yetirilən əməli tədbirlərə, onun gərgin fəaliyyətinin əyani nəticələrinə əsaslanırdı.

O vaxtlar Azərbaycan Respublikasının SSRİ-nin tərkibində olmasına baxmayaraq ulu öndər çəkinmədən, heç nədən və heç kimdən ehtiyat etmədən müstəqil addımlar atıb, Azərbaycanın demokratik islahatlar texnologiyasının mühərrikini özünəməxsus bacarıqla işə salır, böyük məharətlə idarə edirdi.

Ulu öndər bütün sahələrdə olduğu kimi, Azərbaycanın səhiyyə sahəsini daim diqqət mərkəzində saxlayırdı. O, ilk növbədə tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışırdı. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev ölkəmizin səhiyyə sahəsinin, o cümlədən tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq miqyasa çıxmasına, bütün sahələrdə olduğu kimi, bu sahələrin də dayanıqlı və sabit inkişafının təmininə əlverişli şərait yaradırdı.

XX əsrin 70-ci illərinin əvəllərindən etibarən ulu öndərin təşəbbüsü ilə hər il yüzlərlə gənc keçmiş Sovetlər İttifaqının ən mötəbər ali məktəblərində müxtəlif peşələr və müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. O, gənclərin təhsilinə, işlə təmininə, hərtərəfli inkişafına, onların dünyagörüşünün, beynəlxalq əlaqələrinin artmasına, dünya gənclərinin intellekt yüksəkliyinə inteqrasiya olunmalarına, yeniliklərdən bəhrələnmələrinə, fiziki və əqli cəhətdən sağlam böyümələrinə xüsusi diqqət yetirirdi. O, "Gənclər bizim gələcəyimizdir" - dedikdə Azərbaycanın gələcəyinin ağıllı, savadlı, bacarıqlı gənclərin əlində olmasını arzulayırdı. O bilirdi ki, gənclər cəmiyyətin gələcəyidir. Hər bir ölkədəki cəmiyyətin səviyyəsini müəyyənləşdirən gənclərdir. Heydər Əliyev deyirdi ki, "Dövlətimizin gələcəyi bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır". Hər bir ölkənin istər intellektual, istər mədəni, istər elmi, istər siyasi, istərsə də idarəçilik, dövlətçilik səviyyəsi onun gənclərinin səviyyəsi ilə ölçülür. Bütün bunları incəliklərinə qədər bilən, hətta onların görünməyən tərəflərini belə görə bilən ulu öndər gənclərin təhsilinə, tərbiyəsinə, ictimai-siyasi baxışlarına diqqət yetirərək, onların inkişafına geniş şərait yaradırdı.

Azərbaycan səhiyyəsi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində 35 ilə yaxın bir dövrdə bilavasitə Heydər Əliyevin himayəsində olub, onun rəhbərliyi altında inkişaf edib, onun sayəsində indiki yüksək səviyyəyə çatıb.

Ümummilli liderin Azərbaycan səhiyyəsinin dayanıqlı və sabit inkişafının təminatına işıq salan ideyaları heç vaxt sönməyən və tükənməz enerji mənbəyimiz, zəngin xəzinəmizdir.

Azərbaycan milli dövlətçilik ənənəsinin formalaşması və həyatın bütün sahələrini, o cümlədən tibb təhsili, tibb elmi və səhiyyə sistemimizi əhatə edən çoxşaxəli fəaliyyət, əldə olunan parlaq uğurlar, milli-mənəvi dəyərlərin təşəkkül tapması, tarixi soy kökə qayıdış, azərbaycançılıq dəyərləri, dünya görüşünün formalaşması məhz ulu öndərin ideyalarının reallığa çevrilməsinin məntiqi nəticələridir.

Azərbaycanda tibbin inkişafı ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin sərəncamına əsasən Tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən hər il 17 iyun Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunması bunun ən bariz nümunəsidir.

Heydər Əliyev dühasının uzaqgörən siyasətinin süzgəcindən süzülən ideyaların ən möhtəşəm uğurlarından biri də ondan ibarət oldu ki, o, Azərbaycana İlham Əliyev kimi gənc Prezident bəxş etdi. Ulu öndərin xalqımız tərəfindən bəyənilən və dəstəklənən iqtisadi-siyasi kursu hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük müvəffəqiyyətlə davam etdirilir.

Ümummilli liderin başladığı işlər bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Bu gün Səhiyyə Nazirliyi ölkə başçısının sosial yönümlü siyasətini əzmlə və müvəffəqiyyətlə həyata keçirir. Səhiyyədə yeni islahatlar, qanunverici bazanın təkmilləşdirilməsi, təbabətin sosial əhəmiyyətli sahələrində milli fəaliyyət proqramlarının qəbul edilməsi, ölkənin elmi-tibbi potensialının gücləndirilməsi bu gün Azərbaycan səhiyyəsinin əsas inkişaf istiqamətlərindəndir. Hal-hazırda yeni tibb müəssisələrinin tikilməsi, bütün mövcud xəstəxana və poliklinikaların yenidən qurulması və modernləşdirilməsi, yeni avadanlıqlarla təchizatı bugünkü səhiyyəmizin yüksəlişinin təzahürləridir.

Ulu öndər Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın sabit və davamlı inkişafının başlıca qarantı kimi çıxış edir. Ölkəmizə inamla rəhbərlik edən möhtərəm Prezident İlham Əliyev ümummilli liderin qarşıda strateji hədəf kimi müəyyənləşdirdiyi əksər vəzifələrin həllinə nail olmuş, Azərbaycanı bütün sahələrdə dinamik inkişaf edən, məqsədlərinə doğru əzmlə irəliləyən dövlətə çevirmişdir. Xalqın siyasi iradəsi ilə bu siyasətin növbəti illərdə də davam etdirilməsi Azərbaycan səhiyyəsinin, tibb elminin sürətli tərəqqisinə öz layiqli töhfələrini verəcəkdir.

**Arzu NOVRUZOV,**
**Qazax rayon mərkəzi xəstəxanasının baş həkimi**

## 26 iyun Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günüdür

**Mərkəzi Kitabxananın oxu zalında gənclərlə 26 iyun Narkomaniya və Narkobiznesə Qarşı Beynəlxalq Mübarizə Gününə həsr olunmuş "Müasir dövrdə insanlığa qarşı böyük bəla!" adlı görüş keçirilmişdir. Görüşdə şəhər Uşaq Poliklinikasından, rayon Polis şöbəsindən olan nümayəndələr, Qazax "BİOMEN" idman klubunun gənc idmançıları, fəal gənclər iştirak etmişdir.**

# "Müasir dövrdə insanlığa qarşı böyük bəla"

MKS-in direktoru Solmaz Babanlı tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, bəşəriyyətin ən böyük bəlalarından sayılan narkomaniya cəmiyyətin sağlam həyat tərzi üçün ciddi təhlükə törədir. Ulu öndər Heydər Əliyev narkomanlığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət mübarizəsi edərək, 1996-cı il avqustun 26-da müvafiq fərman imzalamışdır. Bunu əsas tutan kitabxanalarımız da müxtəlif səpkili tədbirləri həyata keçirirlər.

Şəhər Multimedia Kitabxana filialının böyük kitabxanaçısı Hicranə Məmmədova "Müasir dövrdə insanlığa qarşı böyük bəla!" adlı məruzə ilə çıxış edərək bildirmişdir ki, müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq bütün mədəniyyət, təhsil ocaqlarında, hüquq-mühafizə orqanlarında narkomaniyanın ziyanı haqqında maarifləndirmə tədbirləri genişləndirilməlidir.

Rayon Polis şöbəsində yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru-polis mayoru Sarif Qurbanov çıxış edərək qeyd etmişdir ki, rayonumuz 2 Respublika ilə sərhəddə yerləşdiyi üçün sanki tranzit rolunu oynayır, mənfur ermənilər zəbt etdikləri ərazilərdə müxtəlif narkotik bitkilər becərir, gizli yollarla satışını təşkil edirlər. Narkomaniya siyasi təzyiqin bir hissəsidir. İnkişaf etmiş ölkəmizi gözü götürməyən xarici dövlətlər sağlam gənclərimizi məhv etmək istəyirlər. Narkomaniya ilə mübarizə hər kəsin işidir, təkcə hüquq-mühafizə orqanlarının işi deyil. Hər bir vətəndaş bu işdə öz köməyini əsirgəməməlidir.

Həkim-narkoloq Nahidə Osmanova çıxışında bildirmişdir ki, "ağ ölüm" xəstəliyi bəşəriyyətin xəstəliyidir. Bu bəlaya düçar olan hər bir uşaq cinayətkarlığın bir addımlığındadır. Aludə olan hər bir kəsə bu bəladan qurtarmaq üçün çoxlu vaxt və möhkəm iradə lazımdır.

Uşaq Poliklinikasının sahə həkimi Nuridə Məmmədova çıxışında vurğulamışdır ki, narkomaniya əsrin bəlasıdır. Bu bəlaya maddi təminatı yüksək olan, valideyn nəzarətindən uzaq və iradəsi zəif olan uşaqlar tutulurlar. Gələcək nəsli bu təhlükədən xilas etmək üçün hamı mübarizə aparmalıdır.

MİHİ Qazax rayon Komitəsinin sədri İsgəndər Qurbanov çıxışında bildirmişdir ki, narkomaniya dəhşətli bir bəladır. Ailə mühitindən, ətraf mühitdən asılı olaraq yaranan bu bəla dağıdıcı hallar yaradır. İradə zəifliyindən yaranan bu bəlaya qarşı hamılıqla mübarizə aparılmalıdır.

Fəal gənclərdən Bəxtiyar Hüseynzadə, Murad Paşayev, Azərbaycan Texniki Universitetinin tələbəsi Orxan Qəhrəmanov çıxışlarında bildirmişlər ki, belə bəlalara yalnız iradəsi zəif, öz həyat tərzini düzgün qura bilməyənlər düçar olurlar.

Tədbirin sonunda "Müasir dövrdə insanlığa qarşı böyük bəla!" adlı sərgiyə baxış keçirilmişdir.

**"GÖYƏZƏN"**

# Narkomanlıq cəmiyyətin özəyi olan ailəni dağıdır

**"Narkomaniya" yunan sözü olub, narko - bihuşluq, maniya - isə asılılıq deməkdir.**

Narkomaniya cəmiyyətin meydana gəldiyi, onun ayrı-ayrı siniflərə, sosial təbəqə və qruplara bölündüyü qədim zamanlardan yaranmışdır.

Qədim misirlilər tiryəkdən həvəsləndirici, eləcə də sakitləşdirici vasitələrin hazırlanmasında istifadə etmişlər.

Tiryəkdən ilk dərman XVI əsrdə alınmış və onu icad edən isveçrəli həkim Paraselsin şərəfinə adlandırılmışdır. Sonralar isə bunun zəhərli maddə kimi orqanizmə əks təsirini, ölümə səbəb olduğunu müəyyənləşdirmişlər.

Narkotik - mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddədir. O toksik maddə olduğundan insanın bütün orqanizminə, ürək-damar sistemindən tutmuş, sinir sisteminə qədər mənfi təsir göstərərək, onun xarakterini dəyişir, xəstə özünü idarə edə bilmir. Orqanizm zəifləyir, bədən arıqlayır, insanın fiziki gücü tükənir. Bu da son nəticədə aqressivliyə, cinayətkarlığa və ölüm hallarına gətirib çıxarır. Uzun illərin araşdırmaları göstərir ki, narkomanlıq insanı həqiqətən də fiziki və ruhi cəhətdən şikəst edir, onun ömrünü qısaldır.

Erkən yaşından narkotik qəbul etməyə başlayan insanın orta ömrü 35-40 il olur. Narkoman narkotik maddələr qəbul edərkən, ən azı 10-15 nəfəri də narkomanlığa cəlb edə bilər.

BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü" kimi qeyd olunur. Ayrı-ayrı dövlətlər ildən-ilə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarını və narkomanlığın müalicə metodlarını təkmilləşdirmək və bu sahədə yeni mübarizə üsullarını kəşf etmək istiqamətində səylərini artırırlar. Fərdi şəkildə və ya beynəlxalq əməkdaşlıq çərçivəsində bu problemə qarşı birgə mübarizə aparılmasına baxmayaraq, dünya üzrə narkomaniyaya düçar olanların sayı ildən-ilə artmaqdadır. Müxtəlif adamlar tərəfindən eyni iynədən venadaxili narkotik maddə qəbul etməyə görə 90 faiz narkoman QİÇS xəstəliyinə yoluxmuşdur. Son illər respublikamızda narkotik vasitələrə və bihuşedici maddələrə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, QHT-lər, ictimai təşkilatlar da fəallığı xeyli artırmışdılar.

# Seminar təşkil olunmuşdur

**Mədəniyyət Mərkəzinin akt zalında Qazax və Ağstafa rayonlarının bələdiyyə sədrlərinin və mühasiblərinin iştirakı ilə vergi qanunvericiliyində aparılmış dəyişikliklərə və bələdiyyələrdə mühasibatlıq, arxiv sənədlərinin tərtibinə dair seminar keçirilmişdir.**

Tədbirdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin Baş İdarəsinin aparıcı məsləhətçisi Zöhrab Fərəcov, Şəmkir Regional Ədliyyə Şöbəsinin böyük məsləhətçiləri Qara Muradov, Heydər Əliyev, Taryel Qəhrəmanov və "Bələdiyyə həyatı" qəzetinin baş redaktoru Vüqar Cəfərov iştirak etmişdir.

Tədbiri giriş sözü ilə Qazax RİHBA-da İnformasiya təminatı və təhlil sektorunun müdiri Məhəmməd Orucov açmış, bu cür tədbirlərin mahiyyəti və əhəmiyyəti haqqında tədbir iştirakçılarına məlumat verərək seminarın işinə uğurlar arzulamışdır.

Seminarda Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin Baş İdarəsinin böyük məsləhətçisi Zöhrab Fərəcov "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu və bələdiyyələrin qarşısında duran vəzifələr haqqında, Ədliyyə Nazirliyinin Şəmkir Regional Ədliyyə Şöbəsinin böyük məsləhətçisi Qara Muradov "Bələdiyylərdə arxiv işinin təşkili" mövzularında çıxış etmişlər.

Çıxış seminar iştirakçılarının marağına səbəb olmuş və bələdiyyə qulluqçularının maarifləndirilməsi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb etmişdir.

Tədbirin sonunda seminar iştirakçıları ilə fikir mübadiləsi aparılmış və onların sual və təklifləri cavablandırılmışdır.

# Dəyirmi masa keçirilmişdir

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı və "Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İB-nin təşkilatçılığı ilə "Gənclərin düzgün dini maarifləndirilməsi mövzusunda ictimai müzakirələr" adlı layihə çərçivəsində dəyirmi masa keçirilmişdir.**

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri Nurəddin Mehdiyev tədbiri giriş sözü ilə açaraq layihə barədə ətraflı məlumat vermişdir. Sonra "Sağlam İnkişaf və Maarifləndirmə" İB-nin sədri Anar Xəlilov mövzu ilə bağlı ətraflı çıxış etmişdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında Dini Ekspertlər Şurasının üzvü, İctimai Televiziyanın "Din və Cəmiyyət" verilişinin aparıcısı Natiq Rəhimov ölkədəki dini durum barədə geniş danışmışdır.

Qazax rayon Gənclər və İdman İdarəsinin məsləhətçisi İsmayıl Süleymanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Regional kuratoru Eldəniz Vəliyev, Qazax rayon Təhsil şöbəsinin aparıcı-məsləhətçisi Rasim Carçıyev mövzu ətarfında tədbir iştirakçıları ilə fikir mübadiləsi aparmış və öz mülahizələrini söyləmişlər.

# MEŞƏLƏRİ YANĞINDAN QORUYUN!

**Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın ən qiymətli milli təbii sərvəti hesab olunur. Münbit torpaqlarımızın yuyulub getməsinin qarşısının alınmasında, sel daşqınlarının minimuma endirilməsində, tarlaların küləkdən və quraqlıqdan qorunmasında meşələrin müstəsna əhəmiyyəti vardır.**

İnsanların həyat və fəaliyyətində mühüm rol oynayan, sözün həqiqi mənasında onların qayğısına qalan meşələrin özünün daim qayğıya ehtiyacı var. Meşələrdən bəhrələnməklə, onun sərvətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərməğan etmək hər bir vətəndaşın borcudur. Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun xüsusən yay aylarında yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

## MEŞƏLƏRİN YANĞIN TƏHLÜKƏSİZLİYİ DAİM DİQQƏT MƏRKƏZİNDƏ OLMALIDIR

Birinci növbədə qeyd edilməlidir ki, respublikamızın meşələrində yanğın təhlükəsizliyinin təşkil olunmasında məsuliyyət Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Departamentinin, onun yerlərdəki strukturlarının üzərinə düşür. Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə mühafizə mühəndisləri meşələrin yanğın təhlükəsizliyi qaydalarını bilməklə meşə sahələrində və zolaqlarında yanğına qarşı ciddi rejim təyin etməli və bu rejimə riayət olunmasını daim nəzarətdə saxlamalıdırlar. Meşə təsərrüfatının rəhbər işçiləri mütəmadi olaraq yanğınsöndürmə texnikalarının və vasitələrinin, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini yoxlamalı, yanğınsöndürmə xidmətinin çağırılması, yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə bağlı işçilərlə təlim məşqləri keçirməlidirlər. Meşə və meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən nöqsanların aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmçinin yanğınsöndürmə texnikasına və vasitələrinə vaxtlı-vaxtında texniki xidmətin göstərilməsinin təşkil edilməsi də zəruridir. Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətini hadisə yerinə çağırmalı, yanğının söndürülməsi üçün mövcud vasitələri təşkil etməlidirlər.

## MEŞƏ YANĞINLARINA SƏBƏB NƏDİR?

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərikindən qopan qığılcımlar da yanğın törədir.

## MEŞƏ YANĞINLARININ QARŞISINI ALMAQ ÜÇÜN NƏ ETMƏLİ?

Meşədə yanğınlara yol verilməməsi üçün yanğın təhlükəsizliyi istiqamətində bir sıra qaydalara əməl olunması zəruridir. Meşə sahələrində söndürülməmiş kibritin, yanan siqaret qalığının və ya kötüyünün hara gəldi atılması, eləcə də tonqalların yandırılması və ağac kömürü istehsal etmək üçün xüsusi ocaqxanaların təşkil edilməsi qadağandır. Küləkli havada tonqalların qalanması xüsusilə təhlükəlidir. Meşələrə sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərə bulaşmış əski və digər materialları atmaq olmaz. Müəyyən olunmamış yerlərdə avtomobil, traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında siqaret çəkilməsi, tonqal yandırılması yanğın təhlükəli olduğundan yolverilməzdir. Dövlət meşə torpaq fondunun, habelə meşə torpaq fondu ilə həmsərhəd olan sahələrdə qurumuş otların, kövşənlərin müəssisələr, idarələr, təşkilatlar və fermer təsərrüfatları, eləcə də əhali tərəfindən yandırılmasına icazə verilməməlidir. Meşələrdə yanacaq və sürtkü yağlarının açıq şəkildə saxlanılması da yanğın təhlükəlidir. Yanğın təhlükəsindən uzaq olmaq üçün meşədə emal edilmiş hazır meşə materialları açıq sahədə müəyyən olunmuş qaydada yığılıb saxlanılmalıdır. Belə ki, meşə materialları yığılan yerlər və yanğına qarşı ara məsafələr yanar materiallardan təmizlənməli, eni 1,4 metrdən az olmayaraq minerallaşdırılmış zolaqlarla haşiyələnməlidir. Turist istirahət zonaları, gənclər və uşaq təşkilatları tərəfindən dövlət meşə fondu torpağında keçirilən kütləvi tədbirlər zamanı tonqallar yalnız Meşə mühafizəsi və Bərpası müəssisəsinin icazəsi ilə bu təşkilatın ayırdığı xüsusi yerlərdə qalana bilər. Tullantıların yandırılması da bütün hallarda həmin təşkilatla razılaşmalıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, meşədə yanğınların baş verməsinə şərait yaradan əsas səbəblərdən biri tonqallardır. Bunu nəzərə alaraq tonqallarla əlaqədar vətəndaşlara meşələrdə yanğın təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tövsiyyələri verməyi məqsədəuyğun sayırıq. Birinci növbədə qeyd etmək lazımdır ki, tonqal yandırılarkən bütün təhlükəsizlik qaydalarına əməl etmək vacibdir. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqal qalamaq üçün əvvəlcədən yer hazırlamaq və yaxud da köhnə, qalanmış tonqalın yerindən istifadə etmək lazımdır. Tonqal qalamaq üçün ilk növbədə ağaclardan xeyli aralıda yer hazırlamaq məqsədə müvafiqdir. Həmin ərazi otlardan təmizlənməli, sonra isə yandırılacaq odun parçaları üçün bel vasitəsi ilə çala qazılmalıdır. Tonqal ətrafındakı otları 0,5-1 metr radiusunda təmizləmək lazımdır. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir.

Tonqal heç zaman nəzarətsiz qalmamalıdır. Ehtiyatda olan yanacaq məhlulu tonqaldan 3-5 metr aralıda saxlanmalıdır. Əgər ehtiyac yoxdursa, çox hündür tonqal qalamaq lazım deyil. Diqqət yetirilməlidir ki, tonqaldan kənara az qığılcım düşsün. Xüsusən də küləkli havada bu, çox təhlükəlidir. Tonqalı yandırarkən küləyin gücünə və istiqamətinə uyğun tonqal yandırmaq lazımdır. Çünki kənara sıçrayan qığılcımlar otun və yarpaqların alışmasına səbəb ola bilər. Çalışmaq lazımdır ki, yarpaqları qurumuş budaqlardan istifadə edilməsin, çünki bu zaman qırağa təkcə qığılcımlar deyil, yanan yarpaqlar da səpələnə bilər. Ərazini tərk edən zaman tonqalı tam söndürməli, üzərinə su atmalı, sonra isə üstü torpaqla örtülməlidir. Əgər tonqalın içində közərən kömür parçaları olarsa, tonqala yenə də su tökülməlidir. Söndürülmüş tonqaldan tüstü və ya buxar çıxarsa, tələsik oradan aralanıb getmək olmaz. Gedərkən tam əmin olmaq lazımdır ki, tonqal tamamilə söndürülüb və sonradan alışma ehtimalı yoxdur. Yanğın təhlükəsi olan meşə sahələri, meşə yolları və digər torpaqlarla həmsərhəd olan sahələr yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin tör-töküntülərdən təmizlənməsi təmin edilməli, meşənin ərazisində yerləşdirilən hər hansı tikilinin ətrafı 15 metr radiusunda şumlanmalı və ya yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil və dəmir yollarının hər iki tərəfi 10 metr məsafədə meşə tör-töküntülərindən, yanar materiallardan təmizlənməli və yanğına qarşı minerallaşdırılmış zolaqlarla təmin edilməlidir. Meşələrin yanğın təhlükəsizliyini təmin etmək məqsədilə əhatəli təbliğat işi aparılmalı, yanğına qarşı plakatlardan, reklamlardan geniş istifadə olunmalıdır. Meşə ilə əlaqəsi olan bütün müəssisələrdə, təşkilatlarda, idarələrdə, əhali arasında, məktəblərdə yanğın təhlükəsizliyi ilə bağlı izahat işlərinə geniş yer verilməlidir. Meşə ilə həmsərhəd olan yaylaqlarda çobanlar, ov mövsümü zamanı ovçular odla ehtiyatlı olmalı və yanğın baş verərsə onun söndürülməsi qaydaları barədə maarifləndirilməlidirlər.

## MEŞƏDƏ YANĞIN BAŞ VERƏRSƏ...

Meşə yanğınları ilə əlaqədar əhali bilməlidir ki, insanlar üçün meşə yanğınının təhlükəsi nəinki alovun birbaşa təsirindən, eyni zamanda atmosferdəki güclü oksigen çatışmazlığından, dəm qazının və digər qatışıqların artmasından yaranan zəhərlənmələrdən ibarətdir. Bunları nəzərə alaraq meşə yanğınları zamanı birinci növbədə insanlar və kənd təsərrüfatı heyvanları təhlükəli zonadan çıxarılmalı, yanğın yerinə giriş məhdudlaşdırılmalı, yanğının söndürülməsində təhlükəsizlik təmin edilməlidir. Yanğın ərazisində işləyənlər xüsusi geyimlərdən, kaskalardan, tüstü əleyhinə maskalardan və əleyhqazlardan istifadə etməlidirlər. Meşə yanğınlarının söndürülməsində iştirak edənlər alovdan qorunmaq üçün mümkün sığınacaqlar barədə, həmçinin yanğın ərazisindən təxliyə yolları, ərazinin oriyentasiyası haqqında da məlumatlara malik olmalıdırlar. Yanğını söndürərkən istifadə olunan texnika ilə ehtiyatlı davranılmalıdır ki, ona zərər dəyməsin. Xüsusi aparat və texnikadan yalnız bu sahədə peşəkarlığı olan adamlar istifadə edə bilər. Meşə yanğınlarını söndürərkən ərazini yaxşı tanıyan adamlardan, həmçinin alovun yayılma istiqamətini izləyən müşahidəçidən istifadə edilməlidir. Yanğın ərazisindən keçmə zərurəti yarandıqda tənəffüs yollarının zədələnməməsi üçün nəfəsi tutmaq lazımdır. Meşə yanğınları zamanı təhlükəli zonadan uzaqlaşarkən tüstüdən və dəm qazından zəhərlənməyə məruz qalmamaq üçün külək istiqamətində deyil, əksinə hərəkət etmək lazımdır.

Bir daha xatırladırıq ki, hər bir vətəndaş yadda saxlamalıdır ki, meşə yanğınları ağacları, kolları-bütün yaşıllığı məhv edir, ekologiyaya ciddi ziyan vurur. Yanğın nəticəsində meşənin bir sıra xüsusiyyətləri itir, fauna məhv olur, yaşayış məntəqələri ziyan çəkir. Bəzi hallarda isə meşə yanğınları insan itkisi ilə nəticələnir, kənd təsərrüfatı heyvanları üçün ciddi təhlükə yaranır. Bunları nəzərə alaraq bir daha vurğulayırıq ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə biz ölkəmizin iqtisadiyyatının inkişafına, vətəndaşlarımızın sağlamlığına xidmət edirik.

**Gəncə Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**



# ŞAHMATA OLAN DİQQƏT VƏ QAYĞI

**Respublikamızda hər bir sahəyə olduğu kimi idmana da diqqət və qayğı göstərilir. İdmanın bütün növləri üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. Rayonumuzda da idmançılar üçün hər cür şərait yaradılır, onlar daim diqqət və qayğı ilə əhatə olunurlar.**

Belə qayğı ilə əhatə olunan idman sahəsindən biri də şahmatdır. 1984-cü ildən rayonumuzda şahmat məktəbi fəaliyyət göstərir. Əvvəllər köhnə binada yerləşən, yararsız vəziyyətdə olan məktəb 2012-ci ildə şəhərimizin coğrafiyasına daxil olan yeni ünvanlardan birinə çevrilmişdir. Prezident İlham Əliyev rayonumuza səfəri zamanı Şahmat Mərkəzinin açılışında iştirak etmişdir. Müasir memarlıq üslubunda inşa edilmiş bina şəhərimizə xüsusi gözəllik verir. Mərkəzin binası şahmat fiqurlarını özündə əks etdirən elementlərlə əhatə olunmuşdur. Mərkəzin dam örtüyünün qarşısındakı şah fiqurunun göstəricisi olan tac uzaqdan diqqəti cəlb edir. Binanın pəncərəarası sütunları isə piyada fiquru formasında inşa edilmişdir ki, bu da binaya xüsusi yaraşıq verir.

Mərkəzdə gənclərin elmin son texnologiyaları ilə məşğul olmaları üçün kompyuter zalı vardır. Eyni zamanda mərkəzdə 5 tədris otağı da fəaliyyət göstərir. Hər bir tədris otağı lazımi avadanlıqlarla təchiz edilmişdir. Mərkəzdə ən böyük sahəni isə oyun zalı əhatə edir. Bir sözlə, mərkəzdə uşaq və yeniyetmələrin şahmat idman növü ilə məşğul olmaları üçün hər cür şərait yaradılmışdır.

Hal-hazırda mərkəzdə 19 qrup fəaliyyət göstərir. Bu qruplarda 213 nəfər şagird şahmatın sirlərini öyrənir. Onlarla 20 nəfər məşqçi-müəllim məşğul olur. Müvafiq iş planına uyğun olaraq tədbirlər planı hazırlanır. Həmin plana əsasən müxtəlif yarışlar, birinciliklər, olimpiadalar təşkil olunur.

2014-2015-ci tədris ilində mərkəzimiz tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 15-25 avqust 2014-cü il tarixlərində qadınlar arasında rayon Birinciıiyi, 04-14 sentyabrda isə UGŞİM-nin yaranmasının 30 illiyi ilə əlaqədar turnir keçirilmişdir. Turnirdə mərkəzin ayrı-ayrı yaş qruplarında olan şagirdlərindən Sevinc Abışova, Nailə Qasımova, Aqil Həsənov I yer, Zərifə Qurbanova, Lalə Səmədova II yer, Aişə Vəliyeva, Selcan Hacıkərimli, Aysel Həsənli, Tağı Xanbabayev, İbrahim Əliyev III yeri tutmuşdur.

Həmin ilin 25-30 sentyabrında Respublika Çempionatının zona yarışları və 12-20 noyabr tarixlərində Milli Dirçəliş Gününə həsr edilmiş turnirdə mərkəzin şagirdləri müxtəlif yerləri tutmuşdur.

2015-ci ildə də bir sıra tədbirlər həyata keçirilmişdir. 29.12.2014-06.01.2015-ci il tarixdə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçirilən turnirdə mərkəzin şagirdləri müvafiq yerləri qazanmışdır. 31.01-08.02.2015-ci il tarixdə 2 Fevral Gənclər Gününə həsr olunmuş turnir keçirilmişdir. Bakı şəhərində həmin bayram gününə həsr edilmiş Respublika turnirində Məhəmməd Qasımlı III yerə layiq görülmüşdür.

16-25 mart tarixlərində mərkəz tərəfindən keçirilən təşkilati turnirdə, 26-30 apreldə ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş şahmat turnirində mərkəzin şagirdləri fəal iştirak edərək müvafiq nəticələr qazanmışdır.

1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günü ilə əlaqədar olaraq 01-10 iyun tarixlərində silsilə yarışlar keçirilmişdir. Bundan əlavə Qazax rayonunda keçirilən Respublika şagirdlərinin VIII Spartakiadasında mərkəzimizin qızlar komandası I, oğlanlar komandası isə III yerə layiq görülmüşdür.

Həmçinin Ağcabədi rayonunda Xocalı Soyqırımı şəhidlərinin xatirə turnirində Lalə Səmədova III yeri tutmuşdur.

Mərkəzin işçi kollektivi əldə etdiyi nailiyyətlərlə kifayətlənmir. Bundan sonra da işlərimizi günün tələbləri səviyyəsində qurmağa çalışacağıq. Şagirdlərimizin nəinki rayonda, eləcə də Respublika yarışlarında yüksək nəticələr qazanmaları üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Rəşad BƏKİROV,
Uşaq Gənclər Şahmat İdman Məktəbinin direktoru**

# "İlhamla qələbəyə doğru"

**MKS-in Xanlıqlar kənd kitabxana filialı şəhid Şəmistan Şahvələdov adına tam orta məktəbdə "İlhamla qələbəyə doğru" adlı tədbir keçirmişdir. Tədbirdə Xanlıqlar kənd Sənətkarlıq evinin işçiləri, məktəbin müəllim-şagird kollektivi, gənc idmançılar və fəal oxucular iştirak etmişdir.**

Məktəbin direktoru Şofiq Qədimov tədbiri giriş sözü ilə açaraq bildirmişdir ki, bu gün müstəqil, suveren, intibah dövrü yaşayan Azərbaycan Beynəlxalq miqyasda möhtəşəm bir tarixi hadisənin ev sahibidir. Xalqımızın tarixinə qızıl hərflərlə yazılacaq möhtəşəm tədbirin I Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmizin müstəqillik dövründə nail olduğu ən böyük uğurlarından biridir. Azərbaycanın hərtərəfli sürətli inkişafı, dünya birliyində tutduğu mövqe, ictimai-siyasi sabitlik belə bir tədbirin ölkəmizdə keçirilməsinə imkan verir. Bu möhtəşəm tədbir ölkəmizin, xalqımızın mədəniyyətinin dünyada daha yaxşı tanıdılmasına, təbliğ olunmasına, etimadın artırılmasına səbəb olacaqdır.

Məktəbin təlim-tədris işləri üzrə direktor müavini Şayəstə Qurbanova, tarix müəllimi Samir Məmmədov, fiziki tərbiyə müəllimi Nizami Qasımov, sənətkarlıq evinin müdiri Nigar Məmmədova çıxış edərək Avropa oyunlarında iştirak edəcək idmançılarımıza uğurlar arzulamışdır.

Sonra gənc idmançıların müxtəlif idman növləri üzrə məşqləri izlənilmişdir. Sonda "İlhamla qələbəyə doğru" adlı sərgiyə baxış keçirilmişdir

**Səbilə ALIYEVA,
Xanlıqlar kənd kitabxana filialının müdiri**

# "Azərbaycan Respublikasında İnsan Hüqüqları sahəsində əldə olunmuş nailiyyətlər"

**İnsan Hüqüqları Aylığı çərçivəsində "Azərbaycan Respublikasında İnsan Hüqüqları sahəsində əldə olunmuş nailiyyətlər" mövzusunda dəyirmi masa keçirilmişdir.**

Ədəbiyyat Muzeyində keçirilən dəyirmi masada Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Gəncə Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov və rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin, Təhsil, Mədəniyyət və Turizm Şöbələrinin, Polis Şöbəsinin əməkdaşları, ictimaiyyət, QHT və KİV nümayəndələri iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Gəncə Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov geniş çıxış etmiş və Azərbaycan Respublikasında İnsan Hüquqları sahəsində görülmüş işlər, əldə edilmiş nailiyyətlər, ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində qarşıda duran vəzifələr barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir. Azərbaycan Respublikasında İnsan Hüquq və Azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması sahəsində Milli Fəaliyyət Proqramı haqqında danışmışdır.

Həmçinin tədbirdə "Milli Fəaliyyət Proqramı"nda normativ hüquqi bazanın təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquqları sahəsində tədris, elmi-analitik, maarifləndirmə və insan hüquqları sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq üzrə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılmışdır.

Sonda mövzu ilə bağlı çıxışlar olmuş və tədbir iştirakçıları ilə mövzu ətrafında fikir mübadiləsi aparılmışdır.

# "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi"

***Mərkəzi Kitabxana Sistemi və Mədəniyyət və Turizm Şöbəsinin birgə təşkilatçılığı ilə mərkəzin akt zalında Milli Qurtuluş Gününə həsr olunmuş dəyirmi masa keçirilmişdir. Tədbirdə mədəniyyət müəssisələrinin işçiləri iştirak etmişdir.***

Mədəniyyət və Turizm Şöbəsinin məsləhətçisi Nailə Əliyeva tədbiri giriş sözü ilə açaraq qeyd etmişdir ki, xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi yazılan bu gün ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası ilə dövlətçilik tariximizə qayıdışı günüdür. Bu parlaq dühanın çoxşaxəli fəaliyyəti ilə vətən qarşısında misilsiz və ölçüyəgəlməz xidmətlərinin nəticəsidir ki, bu gün müstəqil, suveren Azərbaycan ilk Avropa Oyunlarına ev sahibliyi edir.

MKS-in multimedia kitabxana filialının böyük kitabxanaçısı Hicranə Məmmədova Milli Qurtuluş Gününə həsr olunmuş "Dövlətçiliyimizin xilaskarı" adlı geniş məruzə ilə çıxış etmişdir.

MKS-in direkoru Solmaz Babanlı çıxış edərək qeyd etmişdir ki, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Bu tarix həm də Azərbaycanda ölüm-dirim mübarizəsindən qurtuluş tarixidir. Bu tarixi isə yaradan Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan bir insan. ümummilli liderlik zirvəsinə ucalan Heydər Əliyev oldu.

Tədbirin bədii hissəsində şəhər 2 saylı musiqi məktəbinin şagirdləri Elcan Xəlillinin, Səxavət Xəlfəquliyevin, Nurlan İsmayılovun, şəhər 1 saylı musiqi məktəbinin şagirdi Fərid Hacıkərimovun ifasında saz havaları səslənmişdir.

Sonda "Müstəqil dövlətçiliyimizin parlaq səhifəsi" adlı sərgiyə baxış keçirilmişdir.

**Fatma HÜSEYNOVA,
metodika və biblioqrafiya şöbəsinin müdiri**

## *GÖYƏZƏN*

Vurğun vəsf elədi, istədi qəlbən,
Qol sala boynunu quca Göyəzən.
Qartal məskənidir sıldırımların,
Xəyal qanadlanır uça, Göyəzən.

Şairlər vətəni a doğma yurdum,
Gəzdim qarış-qarış köhlənlər yordum.
Yaşını ahıldan, qocadan sordum,
Dedilər qocasan, qoca Göyəzən.

Arxada qoymusan neçə illəri,
Zirvən çox görübdür əsən yelləri.
Səninlə fəxr edir Qazax elləri,
Dağlardan ucasan, uca Göyəzən.

Göyçəm əsir düşüb, başı dardadır,
Qaçqın əllərimin gözü yoldadır.
Zəhmətsiz torpaqlar viran haldadır,
Dərdim zirvələrdən uca Göyəzən.

Murova, Kəpəzə bir salam yetir,
Şuşanın azadlıq xəbərin gətir.
Xəlilin hər anı həsrətlə ötür,
İstər bu düyünü aça, Göyəzən.

## *BİR DƏ*

Ömür möhlət verə bir qismət ola,
Çiçəkli dağları gəzəydim bir də.
Kolların dibində tər bənövşəni,
Diz çöküb, qoxlayıb, üzəydim bir də.

Dolanıb o yerdə baxıb gəzdikcə,
Bir dəli həvəslə gələydim vəcdə.
Babalar yurduma edəydim səcdə,
Maralca yolunu gedəydim bir də.

Çöldən ətəyini yığanda duman,
Diksinib səsimdən qaçaydı ceyran.
Qartallar qalxanda bomboz qayadan,
Turacın uçuşunu görəydim bir də.

Selqıran dərəsi, baldırğan dolu,
Gedəydim çınqıllı, qılğannı yolu.
Yemliyi, yolotu, gah sağı-solu,
Tutub sapağından üzəydim bir də.

Yazmışdım ağaca bir qız adını,
Yenicə duyurdum sevgi dadını.
Dəyişdi sonradan o, soyadını,
Gənclik illərimə dönəydim bir də.

Dağ çayı tək axır, bulanır könlüm,
Dumanlar içində dolanır könlüm.
Ay Xəlil, yaylaqsız qalanır könlüm,
Lilpar bulaqlardan öpəydim bir də.

## *BƏNÖVŞƏ*

Niyə belə dayanmısan,
Qəmli-qəmli ay bənövşə?
Şəbnəm öpüb, oyanmısan,
Olmaz sənə tay, bənövşə.

Ləçəklərin ağı dəyər,
Ürəyimə dağı dəyər.
Bu cür halın qəddim əyər,
Ömrüm olar zay, bənövşə.

Xəyal gəzir o yerlərdə,
Öz yerin var könüllərdə.
Sənsiz ötən bu illərdə,
Yaşım olub çay, bənövşə.

Hicran səpir saça dəni,
Yağı kəsib bənd-bərəni.
Xəlil istər görə səni,
Dəstə tuta pay, bənövşə.

## *GECƏLƏR*

Yığıb şəfəqini günəş gedəndə,
Gün batar ömrümə gələr gecələr.
Bir həsrət sızlayar, göynər sinəmdə,
Ağlayar gecələr, gülər gecələr.

İnam yox ki, görəm bitən həsrəti,
Sinəmdən əl çəkib gedən həsrəti.
Kim çəksə mənim tək Vətən həsrəti,
Mənim çəkdiyimi bilər gecələr.

Yuxuda öz elin, obasın görüb,
Viranə bağlardan solmuş gül dərib.
Xəlil tək didərgin vətəndə qərib,
Dirilər gündüzlər, ölər gecələr.

**Xəlil ƏHMƏDOĞLU**

## *BELƏ TANISIN*

Kim? Deyə, əsrlərdən gələn sorğudu,
XX əsrin Dədə Qorqudu?
Heydər davamçısı oğul İlhamı!
Bax, belə tanısın dünyada hamı.

Uşaqdan böyüyə fərəh içində,
Xoşbəxt xalq belədir, tam bu biçimdə.
İlhamdır ucaldan Azərbaycanı,
Bax, belə tanısın dünyada hamı.

Keçmişim yaşanır yanan məşəldə,
Tarix varaqlanır gör neçə dildə.
İlk Avropa oynunda paytaxt Bakını,
Bax, belə tanısın dünyada hamı.

Yandıqca məşəllər alındı soraq,
Gəldi uzaq-uzaq diyardan qonaq.
Bu sülh körpüsünü quran İlhamı!
Bax, belə tanısın dünyada hamı.

Gülsənəm sən də bir oğul anası,
Sinəndə ürək var qürur duyası.
Oğluna nümunə göstər İlhamı,
Bax, belə tanısın dünyada hamı.

**Gülsənəm CƏLİLİ**

## İTMİŞDİR

"Ustad" kiçik müəssisəsinə aid dəyirmi möhür və künc ştamp itdiyi üçün etibarsız sayılır.

Abdıyev Hacı Məmmədkərim oğlunun adına verilmiş 338 nömrəli qeydiyyat vəsiqəsi və inventar nömrəsi 501-78-/28 olan texniki pasport itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ,
H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB33010019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 3000

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "SQ" mətbəəsində çap edilib.
*Fotolar: Salmanındır.*